BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® Rugasol® Likit

Səthi bərkiməni gecikdirici məhlul

## TƏSVIR

Sika® Rugasol® Likit, görünən aqreqatlı səth əldə etmək üçün yaş betonda üz təbəqənin bərkiməsini gecikdirən həlledicisiz mayedir. Beton səthindəki sement ilə reaksiyaya girərək hidratasiyanın gecikməsinə səbəb olur. Gecikdirmə müddəti bitdikdən sonra beton tam müqavimətinə qədər bərkiməyə davam edir.

## İSTİFADƏ YERLƏRİ

- Növbəti təbəqənin adgeziyasını artırmaq, qaşıma, aşındırma və qırma etmədən kobud səth əldə edilməsi üçün
- Müxtəlif memarlıq tekstura effektlərinə nail olmaq üçün.
- Qumlama, qırma və aşındırma kimi beton hazırlığına alternativ olaraq təzə beton səthinə tətbiq edilərək üfüqi inşaat dərzlərinin emalı üçün
- Beton yürüyüş yollarının emalı zamanı sürüşməzliyi artırılmış görünən aqreqatlı terrazzo beton səthlər əldə etmək üçün istifadə edilir.

## ÜSTÜNLÜKLƏRİ

- Tərkibində həlledici yoxdur
- Asan tətbiq edilir
- Estetik memarlıq effektləri əldə edilir
- Tələbə uyğun olaraq su ilə seyrəldilir
- Ənənəvi səth hazırlığı ilə müqayisədə qənaətcil həlldir

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Maye polihidroksi birləşmələr |
| **Qablaşdırma** | 35 kq bidon |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsulu zədələnməmiş və açılmamış, öz bağlı qablaşdırmasında +5°C ilə +35°C arasında olan temperaturda düzgün şəkildə saxlayın. Birbaşa günəş işığından, həddindən artıq temperaturdan və şaxtadan qoruyun. |
| **Görünüş və rəng** | Şəffaf maye |
| **Sıxlığı** | 1,21±0,01 kq/lt |
| **Özlülük** | 70 cP (+20°C-də) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Sərfiyyat** | 0.15-0.25 kq/m² |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Qəlib içərisində, beton səthinin 3 mm ilə 5 mm-ə qədər dərinliklərdə bərkiməni gecikdirir.
- Gecikmə dərinliyi, məhlul təbəqəsinin qalınlığından, gecikdirici çıxarılana qədər keçən müddətdən, ətraf mühitin temperaturundan, sementin növündən və qarışıqdakı miqdarından asılıdır.
- Gecikdirmə təsirin müddəti sement növündən və mövcud hava şəraitindən asılı olaraq təxminən 3-5 gündür.
- Sika® Rugasol® Likit bir qat tətbiqi adətən kifayətdir, lakin qəlib aşırı hopduruculu və məsaməli ağacdan hazırlanırsa, iki qat tətbiq olunmalıdır.
- Səthi fırça və ya az təzyiqli su ilə təmizləyin.
- Yüksək sement miqdarı və temperatur gecikdirici müddətini azaldacaq.
- Məqbul aqreqat bitişinə nail olmaq üçün ilkin şərt qənaətbəxş beton keyfiyyəti və yerləşdirilməsi, xüsusilə də aqreqatların qranulometriyasıdır.
- Sahə sınaqları önəmlidir, şiddətlə tövsiyə olunur.
- Tətbiq səthi, sürətli qurumaya səbəb olan birbaşa günəş şüasından və küləkdən qorunmalıdır.
- Sika® Rugasol® Likit qablaşdırmasında donarsa, isidilən otaqda tədricən ərimə aparıla bilər (açıq alovdan və ya 50°C-dən yuxarı temperaturdan çəkinin). Əridikdən və yaxşıca qarışdırıldıqdan sonra xassələri təsirlənmir.
- Beton üçün Sika® əlavələri bir-biri ilə uyğun gəlir. Eyni materiallar və iş şəraiti altında ilkin sınaqların aparılması məqsədə uyğundur.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Metal və ya ağac qəlib olmasından asılı olmayaraq qəlib quru və təmiz olmalıdır. Beton səth üzərinə tətbiq olunduğunda beton səthi hamar və ilkin müqavimətini yığmağa başlamamış olmalıdır.

### TƏTBİQ

- Fırça, rulon və ya aşağı təzyiqli püskürtmə avadanlığı ilə tətbiq oluna bilər. Sika® Rugasol® Likit, səthin bütününə eyni istifadə miqdarında və qalınlıqda tətbiq olunmalıdır. Tətbiq təbəqəsi yağışdan və şaxtadan qorunmalıdır.
- Tələb olunan gecikdirmə təsirindən asılı olaraq 1: 1 ilə 1: 3 nisbətində təmiz su ilə seyrəldilə bilər. Yalnız təmiz su ilə istifadə edilməlidir.
- Sika® Rugasol® Likit üfüqi beton səthinə betonun ilkin hidrotasiyası başa çatan kimi, lakin ilkin bərkimədən əvvəl tətbiq edilməlidir. Ətraf mühit temperaturu, betonun kürlənmə və bərkimə xüsusiyyətlərindən asılı olaraq 2-12 saat sonra səth üzərindəki sement şərbət qatı fırça və ya su ilə yuyaraq cıxarılır.
- Sika® Rugasol® Likit qəlib səthinə tətbiq edildikdən sonra dərhal betonlama aparıla bilər.
- Qəlibə mümkün qədər tez vurun. Qəlib çıxarıldıqdan dərhal sonra beton səthi güclü su axını ilə yuyulmalıdır. Lazım gələrsə, fırçadan istifadə edin.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12